# ELM ŞÖBƏSİNİN ƏMƏKDAŞLARI



**Abdullazadə Aydın Seyfulla oğlu** 21 mart 1980-cı ildə Bakı şəhərində anadan olmuşdur, 1997-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin «Uçot iqtisad» fakültəsinə daxil olmuşdur.

1998-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin nəşriyyat şöbəsində işə başlayaraq fotoofsetçi, çapçı, operator-dizayner vəzifələrində, 2010-cu ildən isə hal-hazıra qədər Elm şöbəsində inspektor vəzifəsində işləyir.

«Universal döyüş» idman növü üzrə Avropa çempionatının bürünc medal və 2009-cu ildə keçirilmiş Ümummilli liderimiz Heydər Əliyevin xatirəsinə həsr olunmuş Beynəlxalq Turnirin gümüş medal mükafatçısıdır. «Universal döyüş» idman növü üzrə «C» kateqoriyalı Beynəlxalq dərəcəli hakimdir.



Məmmədova Ülviyyə Zeynəddin qızı 1979-cu ildə Qəbələ rayonun Zarağan kəndində anadan olub. 1996-2000-ci illərdə Bakı Dövlət Universitetinin "Mexanika-riyaziyyat" fakultəsində təhsil almışdır. 2002-2005-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetin "İqtisadiyyat və idarəetmə" istiqamətinin MBA Proqramı ixtisaslaşması üzrə magistraturanı fərqlənmə diplomu ilə bitirmişdir.

21 noyabr 2001-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Elm şöbəsinə inspektor vəzifəsinə qəbul olunmuşdur və hal-hazırda da bu vəzifədə çalışır.



Cəfərova Natavan Rasim qızı 1977-ci ildə Bakı şəhərində anadan olub.1994-1998-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisası üzrə təhsil almışdır. 2000-2002-ci illərdə ADİU-nun müvafiq ixtisas üzrə magistraturasında təhsilini davam etdirmişdir və fərqlənmə diplomu ilə universiteti bitirmişdir.

2000-ci ilin aprel ayında Azərbaycan Dövlət İqtisad Universitetinə "Elm" şöbəsinin inspektoru vəzifəsinə qəbul olunmuşdur və hal-hazırda da bu vəzifədə çalışır.

ADİU tərəfindən 2012-ci ildə Türk Standartları İnstitutunun keçirdiyi "TS EN İSO 9001 Keyfiyyəti İdarəetmə Sistemi" kurslarına göndərilmişdir və auditor sertifikatı almışdır. Universitetin fəaliyyətinin Keyfiyyəti İdarəetmə Sisteminin tələblərinə uyğun yoxlanılmasında iştirak edən daxili auditorlardan biridir.



Muradova Səkinə Faiq qızı 1971-ci ildə Bakı şəhərində anadan olub. 1989-cu ildə Dövlət Statistika Komitəsinin nəzdində fəaliyyət göstərən kollecə daxil olub, “Mühasibat uçotu” ixtisasına yiyələnmişdir.

1997-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Elm şöbəsinə operator vəzifəsinə işə qəbul olunmuşdur. Hal-hazıradək həmin vəzifədə çalışır.



Məmmədova Zöhrə Kaçay qızı 1954-cü ildə Bakı şəhərində anadan olub.1973-cü ildə Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna qəbul olmuş və 1978-ci ildə həmin institutu bitirmişdir. 1973-cü ildə D.Bünyadzadə adına Az.XTİ-nun Kimya kafedrasına pereparatop vəzifəsinə qəbul olunmuşdur. Sonra Mühasibat uçotu fakultəsinin axşam şöbəsində katibə-makinaçı, metodis, tədris hissəsində inspektor, baş inspektror, 2004-cü ildən isə universitetin Elm şöbəsində böyük inspektor vəzifəsində çalışır.



**Əlizadə Şəfa Məmmədbağır qızı** 1983-cü ildə Bakı şəhərində anadan olub. 2000-ci ildə orta məktəbi bitirib, Azərbaycan Dövlət İqtisad Universitetinə daxil olub. 2005-ci ildə “Ümumi iqtisadiyyat” istiqamətli “Mühasibat uçotu və audit” ixtisası üzrə bakalavr dərəcəsi alıb.

01.04.04-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin “Elm” şöbəsində inspektor vəzifəsində işə başlayıb. 2010-cu ildə “İqtisadiyyat” istiqamətli “Mühasibat uçotu və audit” ixtisası üzrə magistr dərəcəsi alıb.

Hal-hazırda Elm şöbəsində inspektor vəzifəsində çalışır.